*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 547-555*

https://doi.org/10.62837/2025.6.547

**AYSU MƏHƏMMƏDƏLİ QIZI HÜSEYNLİ**
**Azərbaycan Dillər Universiteti**
**Dünya ədəbiyyatı və nəzəriyyəsi kafedrasının doktorantı**
**e-mail: aysu_huseynli@mail.ru**

# HOVARD BARKERİN "BRUTOPİYA" PYESİNDƏ İNTERTEKSTUAL DİALOQ (TOMAS MORUN "UTOPİYA"SI MÜSTƏVİSİNDƏ)

**XÜLASƏ**

Məqalədə Hovard Barkerin "Brutopiya" pyesinin Tomas Morun "Utopiya"sı ilə ideya qarşıdurması araşdırılır və bu qarşıdurmanın ədəbi, fəlsəfi və estetik təməli açıqlanr. Əsrlər boyu "Utopiya" siyasi fəlsəfə, sosial idealizm və rasional nizamın simvolu olaraq həm utopiya, həm də distopiyadan yazan yazıçılar üçün mühüm istinad mənbəyi olmuşdur. Hovard Barker ənənəvi stereotipləri dağıdır, insan təcrübəsinin ziddiyyətlərini, fərdi azadlığın və mənəvi dəyişkənliyinin əhəmiyyətini önə çəkir. Məqalə müəllifi H.Barkerin "Brutopiya"sını sadəcə utopiyaya qarşı distopik bir reaksiya kimi təhlil etmir. Qeyd edir ki, pyes utopizmin daxili ideoloji zorakılığını, sosial nizamın repressiv mexanizmini və mükəmməllik arzusu altında gizlənmiş güc münasibətlərini üzə çıxaran meta-tənqiddir. Dramaturq bu məqsədlə "Fəlakət teatrı" anlayışını və poetik parçalanma üsulunu tətbiq edir, tamaşaçılara sakitləşdirici deyil, narahatlıq və intellektual mübahisə yaradan teatr estetikası kimi təqdim edir. Məqalədə müəyyən edilir ki, "Brutopiya" mükəmməl və rasional cəmiyyət ideyasına qarşı çıxır, fərdi istəklərin, qəddarlığın və ziddiyyətli insan təcrübələrini üzə çıxarır və göstərir. Bu baxımdan Barkerin pyesi distopiyanı göstərən alternativ baxış bucağı deyil, həm də utopik idealların davamlı olaraq sorğulanmasını və dekonstruksiya edilməsini göstərən fəlsəfi, ədəbi-estetik bir çağırışdır.

**Açar sözlər:** Hovard Barker, "Brutopiya", Tomas Mor, "Utopiya", distopiya, "Fəlakət teatrı", müasir dramaturgiya, meta-tənqid

**Giriş.** 1516-cı ildə latın dilində çap olunan Tomas Morun "Utopiya" əsəri Qərb siyasi və fəlsəfi fikrində xüsusi yerə sahibdir. T. Morun özünü və səyahətçi Rafael Hislodeyi dialoq şəklində qarşılaşdırdığı bu kitabda ağıl, bərabərlik, ictimai mülkiyyət və dini dözümlülük prinsipləri üzərində qurulan ideal bir cəmiyyət təsvir olunur (11, s. 12–17). O dövr Avropasında hökm sürən korrupsiya və sosial ədalətsizlik fonunda yazılan "Utopiya" yalnız ədəbi fantaziya deyil – əsər həm də etik idarəetmə və daha rasional bir ictimai nizam üçün cəsarətli bir təklif kimi oxunur. Buna görə də o, əsrlər boyu filosoflara, yazıçılara ilham verib.

Utopik ideya təkcə siyasi düşüncəni deyil, Qərb ədəbiyyatında yeni bir janrı da formalaşdırdı. XVI əsrdən başlayaraq bu ideya müxtəlif dövrlərdə və fərqli mədəniyyətlərdə inkişaf etdi, bəzən ideal cəmiyyətin vədi kimi, bəzən də onun təhlükələrini ifşa edən antiutopik yanaşmalarla səhnəyə çıxdı. Bununla belə, "Utopiya"nı birmənalı şərh etmək heç vaxt asan olmayıb. Rafael Hislodeyin təsvir etdiyi cəmiyyət bir tərəfdən ədalətli və harmonik görünür, digər tərəfdən isə köləlik, şəxsi davranışa sərt nəzarət və fərdi azadlıqların məhdudlaşdırılması ilə seçilir (11, s. 54-61). Bu ziddiyyət əsrlərdir mübahisə doğurur: T.Mor həqiqətənmi belə bir sistemi təklif edirdi, yoxsa onun ideoloji sərhədlərini satirik bir tənqid kimi göstərirdi?

Kitabın adı da bu gərginliyi gücləndirir. Yunan dilində ou-topos ("yer yoxdur") və eu-topos ("yaxşı yer") sözlərinin birləşməsindən yaranan "utopiya" anlayışı həm cazibədar, həm də əlçatmaz bir ideyanı ifadə edir. "Utopiya"nın cazibəsi məhz əxlaqi idealizm və zorakı vahidlik arasındakı daxili gərginlikdən doğur; bu da əsərə əsrlər boyu tənqidi aktuallıq qazandırır. Bununla belə, "Utopiya" üzərində aparılan araşdırmaların böyük hissəsi siyasi nəzəriyyə və roman janrı ilə məhdudlaşıb. Halbuki müasir teatrda, xüsusilə də Hovard Barkerin "Brutopiya" pyesində Morun utopik ideyalarının necə sorğulandığı və dekonstruksiya edildiyi az öyrənilib. Bu sahədə ciddi bir elmi boşluq qalmaqdadır.

H.Barker postmodern teatr vasitəsilə utopik düşüncəni yalnız tənqid etmir, həm də onu çoxsəsli, mübahisəli bir məkana çevirir. Belə yanaşma utopik ənənənin ədəbi və fəlsəfi sərhədlərini genişləndirir. H.Barkerin pyesi Azərbaycan ədəbi mühitinə yeni baxış gətirir və göstərir ki, utopik ideya yalnız nəzəriyyə deyil, müasir dramaturgiyada yenidən sorğu-sual edilə bilər. T.Morun "Utopiya"sı yalnız siyasi və fəlsəfi düşüncəyə deyil, həm də dramatik ədəbiyyata dərin və uzunmüddətli təsir göstərmişdir. Əsərin təsvir etdiyi mükəmməl və ya ideal cəmiyyət anlayışı əsrlər boyunca dəyişmiş, lakin müxtəlif dramaturqlar T.Morun modelinə yenidən qayıdaraq onu ya ideal, ya da məhdud etməyə çalışmışdır. Dramaturgiyada utopik janr bədii nəsrlə müqayisədə daha az nəzərə çarpsa da, teatr sənəti ideal cəmiyyətlərin daxili ziddiyyətlərini səhnə dili ilə üzə çıxarmaqda əvəzsiz rol oynayır. Bu baxımdan Bertolt Brext, Keril Çörçil və Toni Kuşner kimi müəlliflər Morun utopik irsinə müxtəlif dövrlərdə və fərqli siyasi kontekstlərdə cavab vermiş, hər biri utopik düşüncəni özünəməxsus şəkildə sorğulamış və yenidən təsəvvür etmişdir (13, s. 6–9).

**Bədii ədəbiyyat və "Utopiya" ilə intertekstual dialoq.** Bertolt Brextin "Epik teatrı" T.Morun "Utopiya"sı ilə gizli, lakin güclü bir dialoq qurur. B.Brext birbaşa T.Morun əsərinə istinad etməsə də, "Qafqazın təbaşir dairəsi "(The Caucasian Chalk Circle) (1948) və "Sıçuanın yaxşı adamı " (The Good Person of Szechwan) (1943) kimi əsərlərində marksist baxışla utopik arzularını irli sürür(4, s. 3–10). Onun personajları T.Morun təsvir etdiyi cəmiyyət kimi ədalət, bərabərlik və rasional ictimai quruluş uğrunda mübarizə aparır. Bununla yanaşı, B.Brext insanın zəifliyi və

sistemin istismarı qarşısında bu idealların nə qədər kövrək olduğunu göstərir. Onun məşhur “Özgələşmə effekti” (Verfremdungseffekt) tamaşaçını emosional məsafədə saxlayır, sosial problemlərə tənqidi baxış imkanı yaradır. Bu yanaşma T.Morun özünün ironiyalı dialoq forması ilə səsləşir və nəticədə B.Brext utopik ideyanı həm siyasi, həm də estetik müstəvidə sorğu-sual edən epik teatra çevirir.

Keril Çörçil isə “Zirvədəki Qızlar” (Top Girls) (1982) pyesində utopik fikri daha açıq feminist prizmadan tənqid edir. Tamaşanın sürreal açılış səhnəsində tarixi və uydurma qadın fiqurlarının bir araya gəlməsi qadınların həyatında utopiyanın heç vaxt davamlı olmadığını göstərir (5, s. 1–16). K.Çörçil kapitalist rəqabətin və patriarxal sistemlərin qadın azadlığını necə məhdudlaşdırdığını vurğulayaraq, ənənəvi utopik təsəvvürlərin gender bərabərliyini nəzərə almadığını ifşa edir. Nəticədə “Zirvədəki qızlar” yalnız T.Morun utopik məzmununu deyil, həm də utopik təxəyyülün öz formal strukturunu da şübhə altına alır.

Toni Kuşnerin “Mələklər Amerikada” (Angels in America) (1991) əsəri isə utopik motivləri XX əsrin sonlarında Amerikanın sosial və siyasi reallıqları ilə birləşdirir. Reyqan dövründə baş verən hadisələr fonunda yazılan bu pyes, xüsusilə ikinci hissə olan “Perestroyka”da, parçalanmış dünyada həmrəylik və mənəvi yenilənmə axtarışını ön plana çıxarır. Personajlar ölüm, xəstəlik və dəyişimin qarşısında dirənərək daha ədalətli bir gələcək üçün arzularını qoruyurlar. T.Kuşner bu yolla qüsurlu, lakin mümkün bir utopiyanın zəruriliyini göstərir (10, s. 148–157). Onun magik realizm və simvolizmlə zəngin teatr dili transsendental istəyini ifadə etsə də, ideoloji mütləqiyyətə qarşı açıq tənqid daşıyır.

Bu üç pyes göstərir ki, T.Morun “Utopiya”sı yalnız birbaşa sitatlarla deyil, həm də mövzu, struktur və fəlsəfi mübahisələr vasitəsilə müasir dramaturgiyada yaşamını davam etdirir. B.Brext utopiyanı siyasi tənqidə çevirir, K.Çörçil onun gizli istisnalarını üzə çıxarır, T.Kuşner isə onu kövrək, lakin zəruri bir ümid kimi yenidən təsvir edir. Bu dramatik rezonanslar teatrın “ideal cəmiyyət” anlayışını yalnız təsdiqləmək üçün deyil, həm də onun daxili gərginliyini ifşa etmək üçün necə güclü bir vasitə olduğunu sübut edir.

Əsrlər boyu T.Morun “Utopiya” əsəri həm utopik, həm də distopik hekayələrin formalaşmasına mühüm təsir göstərmişdir. Əsərin siyasi fəlsəfə, satirik yazı və ictimai kamillik ideyalarının etikası ilə bağlı açdığı müzakirələr onu yalnız ideal cəmiyyətin təsviri kimi deyil, həm də fərdi azadlıqların məhdudlaşdırılması və zorakılığın tənqidi kimi oxumağa imkan verir. Bu paradoksal irs postmodern dövrdə, xüsusilə də H.Barker kimi dramaturqların yaradıcılığında yeni istiqamət tapmışdır. H.Barkerin “Brutopiya” əsəri Morun irsinə radikal bir cavab olaraq nizamın mürəkkəbliyə, azadlığın isə qəddarlıq və fərdi istəklərə qurban verildiyi alternativ bir dünyanı səhnəyə gətirir.

**“Utopiya” və “Brutopiya” arasında intertekstaul dialoq.** 2001-ci ildə nəşr olunan “Brutopiya” T.Mor tərəfindən təməli qoyulmuş utopik düşüncə ənənəsinə

qəsdən və tamamilə əks mövqedən yanaşan bir pyesdir. Əsərin adı – “brutal” və “utopia” sözlərinin birləşməsi – H.Barkerin T.Morun ideal cəmiyyətini dekonstruksiya edərək qəddarlıq, erotik pozuntu və radikal fərdiyyətçiliklə dolu bir dünya yaratmaq niyyətini açıq şəkildə göstərir. Bu səbəbdən “Brutopiya” yalnız distopik bir antitezis kimi deyil, həm də utopik konsepsiyanın fəlsəfi əsaslarını sorğulayan postmodern bir dekonstruksiya kimi dəyərləndirilir (12, s. 117). Yeganə Abdullayeva yazır ki, “İstənilən əsər həm müəllifdən, həm də oxucudan şərh tələb edir. Bu təkcə reallığı əks etdirmir, həm də onu insan təxəyyülündə formalaşdırır və emal edir, yəni yeni bir “reallıq” yaradır”. Bu xüsusiyyət postmodernist əsərlərə xasdır (16, s.5).

Əsərin əsası 1989-cu ildə yazılmış “Qədim Çelsidə gizli həyat” televiziya tamaşasına dayanır və 1993-cü ildə H.Barkerin toplanmış pyesləri arasında nəşr edilmişdir. H.Barkerin digər tarixi əsərlərində olduğu kimi, burada da müəllifin hökumətə və siyasi hakimiyyətin sənət üzərindəki nəzarətinə qarşı mübarizəsi açıq şəkildə görünür. Tamaşanın mövzusu VIII Henrix və Tomas Mor arasındakı siyasi münaqişədən başlayaraq T.Morun edamına qədər gedib çıxır. Bu əsərdə ictimai rifah bəhanəsi ilə şəxsi mənfəət üçün siyasi hakimiyyətin sui-istifadəsi kəskin tənqid edilir. H.Barker T.Morun qızı Sesilianı tarixi mənbələrdə marjinallaşdırılmış bir obrazdan güclü və iradəli bir müəllifə çevirərək alternativ tarix yazır. Bu yanaşma həm tarixi həqiqətlərin nisbi və konstruktiv xarakterini göstərir, həm də siyasi hekayələrin necə təhrif oluna biləcəyinə işarə edir.

H.Barkerin VIII Henrixi despotik hökmdar, T.Moru isə laqeyd siyasətçi kimi təsvir etməsi dramaturqun yalnız keçmişə deyil, həm də öz dövrünün siyasi liderlərinə yönəlmiş kəskin tənqididir. Bu baxımdan “Brutopiya” yalnız siyasi və əxlaqi bir əsər deyil, həm də dramaturqun “Fəlakət teatrı” adlandırdığı estetik prinsipin praktik ifadəsidir.

Əsərin adı və tematik quruluşu açıq şəkildə T.Morun “Utopiya”sına istinad edir. Sesilianın yazdığı traktat siyasi anti-utopiya formasında təqdim olunur. Bununla yanaşı, “Brutopiya” termini H.Barkerə məxsus orijinal bir kəşf deyil. XX əsrin ortalarında Donald Dak nağıllarında da “Brutopiya” adlı xəyali bir ölkə təsvir edilmişdir (7, s. 1). Donald Dakın yaradıcısı Don Rosa isə müsahibələrində bu ölkəni SSRİ və həmin dövrün rus cəmiyyətinə əsaslanaraq qurduğunu etiraf etmişdir. H.Barkerin bu əvvəlki istifadədən xəbərdar olub-olmamasından asılı olmayaraq, onun əsərində Sovet Rusiyası ilə Britaniya arasında yaratdığı analoji münasibətlər dramatik baxımdan əhəmiyyətlidir. Bu analoji əlaqə “Brutopiya” sözünün “Britaniya Utopiyası” kimi səslənməsi ilə də güclənir və əsərin siyasi kontekstini genişləndirir.

Pyes XVI əsrin əvvəllərində Londonda səhnələşdirilmiş kimi təqdim edilir və T.Morun “Utopiya”sının nəşrindən qısa müddət sonra baş verdiyi qeyd olunur. H.Barker tamaşanın girişindəki “1516-cı ildə Tomas Mor “Utopiya”nı nəşr etdi… Onun qızı Sesilia isə “Brutopiya”nı gizli şəkildə yazdı…” (11, s. 131) qeydi ilə tarix

və bədii təxəyyül arasında sərhədləri bilərəkdən pozur. Bu yanaşma, yazılı tarixin çox vaxt uydurma elementlər üzərində qurulduğunu və tarixi hekayələrin siyasi məqsədlərlə təhrif oluna biləcəyini vurğulayır. Sesilia obrazının əsas tarixi fiqurlardan üstün tutulması da bu məqsədə xidmət edir.

Pyesdə Brutopiya təsviri müasir Britaniyanın tənqidi kimi çıxış edir. Sesilia ölkəni "respublika, lakin monarxiya… savadlı xalq, lakin kitabların olmadığı…" və "şikayətin Brutopiyanın musiqisinə çevrildiyi" (3, s. 145) bir məkan kimi təqdim edir. Burada H.Barker monarxın qanun olduğu və vətəndaşların susqunluqla itaət etdiyi avtoritar rejimi ifşa edir. Sesilianın yaratdığı bu xəyali dünya ifadə azadlığının mümkün olduğu yeganə sığınacaq kimi təsvir olunur. Brutopiya həm Sesilianın, həm də H.Barkerin korrupsiya, mədəniyyətin təhrif olunması və siyasi repressiya kimi problemlərə yönəlmiş sosial-siyasi tənqidinin bədii vasitəsinə çevrilir.

T.Mor və "Utopiya"dan gələn bir həkim arasındakı dialoqda isə H.Barker T.Morun idealist baxışını ironik şəkildə üzə çıxarır. Morun disharmoniya və xəstəliklərin mövcud olmadığı utopik cəmiyyəti müdafiə etməsi əsərin satirik tonunu gücləndirir və utopik mükəmməlliyin reallıqdan uzaq olduğunu göstərir.

H.Barker əsərdə həmçinin siyasi gücün sənət əsərlərinə təsirini açıq şəkildə göstərir. T.Mor ilə kitabın ön sözünü yazan Daker arasında keçən dialoqda hakimiyyətin yazıçıya təzyiqi və məzmunun monarxın istəklərinə uyğunlaşdırılması tənqid edilir. Sesilianın kitabının senzurasız nəşrinə icazə verilməməsi isə sənətin dövlət tərəfindən nəzarətə alınmasını ifşa edir. T.Morun öz "Utopiya"sı belə kralın təsdiqi və siyasi maraqların qorunması üçün dəyişdirilir.

Bu vəziyyət H.Barkerin dövründə də aktual idi: ədəbiyyat və teatr çox zaman siyasi ideologiyaların təsiri altında formalaşırdı. H.Barker bu əsərlə sənətin bütün siyasi və əxlaqi çərçivələrdən tam azad olmasının vacibliyini vurğulayır. Sesilianın "Brutopiya" kitabı ilə H.Barkerin öz pyesi eyni məqsədə – sənətin ideoloji basqılara qarşı mübarizəsinə – xidmət edir.

1980-ci illərdə yazdığı "Günahın sonu yoxdur" (No End of Blame), "İtin gücü"(The Power of the Dog), "Tarixdə mərhəmət"(Pity in History), "Edam səhnələri"(Scenes from an Execution) və "Brutopiya"(Brutopia) kimi əsərlərində H.Barker senzura, fikir və ifadə azadlığının məhdudlaşdırılması, totalitar rejimlərin sənətə təzyiqi və siyasi istismar kimi məsələləri tarixi Avropa kontekstində səhnələşdirir. Bu pyeslərdə dramaturq keçmiş ilə müasir dövr arasında paralelliklər quraraq sənətin etikası, funksiyası və sənətkarın ictimai əxlaq qarşısındakı məsuliyyəti haqqında dərin fəlsəfi müzakirə aparır.

H.Barkerin dramaturgiyası ənənəvi teatrın funksiyalarnı rədd edərək poetik parçalanma, intellektual təxribat və mənəvi qapanmadan imtina edən personajlar üzərində qurulmuşdur. "Brutopiya"da vətəndaşlar T.Morun "Utopiya"sındakı kimi ağıl və ümumi etika ilə deyil, istək, hökmranlıq və estetik ekstremallıqla idarə olunurlar. Burada nə barışıq, nə də klassik mənada katarsis mövcuddur; əksinə,

qəhrəmanlar qəddarlığı təcrübə edir, gücdən həzz alır və cinsəlliyi suverenliyin bir forması kimi yaşayırlar. H.Barkerin fikrincə, insanın peşmanlıq hissi keçirməməsi sivilizasiyanın dağılması deyil, onun əsl mahiyyətinin üzə çıxmasıdır. Müəllifin "Teatr üçün arqumentlər" əsərində qeyd etdiyi kimi, "Sənətdə faciənin düşməni sakitlik və həllediciliikdir… teatr sakitləşməməlidir" (2, s. 24). "Brutopiya"nın mərkəzi ideyası Maarifçi humanizminin rəddinə və postmodern relativizmin vurğulanmasına əsaslanır. T.Morun utopik cəmiyyəti birgə xoşbəxtlik məqsədilə rasional çərçivədə fəaliyyət göstərsə də, H.Barker bu məqsədin özündə gizlənən zorakılığı səhnəyə gətirir. Sarcentin qeyd etdiyi kimi, utopiyalar çox vaxt "müxalifətin susmasını, hətta məhv edilməsini tələb edir" (13, s. 14). "Brutopiya" isə bu təməli tərsinə çevirir və eyni zamanda utopik ideologiyanın zorakı təbiətini diqqətlə incələyir. Barker beləliklə, distopiyanı sadəcə uğursuz utopiya kimi deyil, utopik düşüncənin özündəki uğursuzluğun dramatik ifadəsi kimi təqdim edir.

H.Barkerin teatrı qapanış və həll yolu təklif etməz, əksinə, tamaşaçını qeyri-müəyyənlik və əxlaqi narahatlıqla üz-üzə qoyar. Rabeyin vurğuladığı kimi, "Brutopiya" "idealist ideologiyanın ikiüzlülüyünə və repressiyasına şiddətli hücumdur" (12, s. 122). H.Barker utopik mükəmməlliyin altında gizlənən struktur zorakılıqlarını ifşa edərək T.Morun ideoloji memarlığını təxribat yolu ilə dağıdır və yeni bir utopiya təklif etməkdən imtina edir. Bunun əvəzinə, azadlığın ziddiyyət, qəddarlıq və arzuda mövcud olduğu radikal estetik və fəlsəfi bir məkan yaradır.

"Utopiya" "Brutopiya"nın utopik ədəbi spektrindən tamamilə əks tərəfdə dayanır. T.Mor xüsusi mülkiyyətin ləğvi və kollektiv rifaha əsaslanan kommunal cəmiyyət təsvir edir: "Ancaq hər şeyin hamıya məxsus olduğu Utopiyada heç kimin öz malı kimi nəyisə iddia etmək üçün heç bir səbəbi yoxdur. Əgər hər zaman təmin olunacağınıza əminsinizsə, gələcəyiniz üçün narahat olmayın" (11, s. 47). Bu bərabərlik ideyası əxlaqi cəhətdən cəlbedici görünsə də, köləlik və müxalifətin repressiyası kimi problemli istisnalarla müşayiət olunur (9, s. 335). H.Barker isə fərdiyyətçi və ekstremal azadlığı önə çəkir: "Mən gələcək istəmirəm, yalnız incitmək və incidilmək, mənim olanı bəzi qanunların mənə icazə verdiyi üçün deyil, mənim olduğu üçün azadlığı istəyirəm" (3, s. 58). Məkan dizaynında da bu fərq açıq şəkildə görünür. T.Mor sərhəd və məkan vahidliyi ilə sosial nizamı qoruyur: "Pasportsuz səyahət edənlər, sanki vətən xaini kimi sərt şəkildə cəzalandırılır… Hər kəs öz yerini bilmədikcə nizamı qorumaq mümkün deyil" (11, s. 62). H.Barker isə məkanı ideoloji həbsxana kimi təqdim edir: "Bu həbsxana cinayətkarlar üçün deyil, mütəfəkkirlər, aşiqlər, mükəmməllikdən imtina edənlər üçündür. Biz burada çürüyürük ki, şəhər təmiz qalsın" (3, s. 89). Əxlaqi nizam T.Mor üçün sülhün əsas qoruyucusudur: "İctimai məsələləri şuradan kənarda müzakirə etməyə cəhd edən hər kəs ölümə məhkum edilir. Vahidlik sülhün keşikçisidir" (11, s. 69). H.Barker isə buna zidd olaraq qeyri-müəyyənliyi və əzabı önə çıxarır: "Sülh təktərəfli deyil, o, əzab, ziddiyyət və hər ikisinə dözmək cəsarətidir" (3, s. 102). Bu dramatik inversiyalar

"Brutopiya"nı sadəcə distopiya olmaqdan çıxarır və onu utopizmin özünə yönəlmiş meta-tənqidi cavaba çevirir. Ceksonun ifadə etdiyi kimi, "Barkerin dramı utopiyanın görünməz etməyə çalışdığı güc strukturlarının maskasını açır" (8, s. 342).

H.Barkerin "Brutopiya"sı T.Morun utopik ideallarını radikal şəkildə dekonstruksiya edir və utopizmin özündə gizlənən ideoloji zorakılığı üzə çıxarır. Amma eyni zamanda da əsərlə dialoqa girir. Dramaturqun "Fəlakət teatrı" utopik harmoniyanı qeyri-müəyyənlik, qəddarlıq və fərdiyyətçiliklə əvəz edir. Beləliklə, "Brutopiya" yalnız distopik bir alternativ deyil, həm də utopik düşüncənin ziddiyyətlərini ifşa edən, azadlığın ziddiyyət və qarşıdurma ilə mümkün olduğunu göstərən meta-tənqidi bir teatr əsəridir. Bu mənada o, keçmişlə dialoqdur. Qeyd etməliyik ki, dialoq H.Barkerin pyesində tamaşaçını əxlaqi rahatlıqdan çıxarır, mükəmməl cəmiyyət arzularını sual altına qoyur və ideoloji idealların daim yenidən sorğulanması ideyasını önə çəkir.

## Ədəbiyyat

1.Baker‑Smith, D. (2000). More's Utopia and the Utopian Mode of Discourse. Utopian Studies Journal, 11(2), 45–60.

2.Barker, H. (1997). Arguments for a Theatre (3rd ed.). Manchester University Press.

3.Barker, H. (2001). Brutopia. In Collected Plays, Volume 3. Calder Publications.

4.Brecht, B. (1964). The Caucasian Chalk Circle and The Good Person of Szechwan. Methuen Drama.

5.Churchill, C. (1982). Top Girls. Methuen Drama.

6.DeRider, N. (2012). Don Rosa's Brutopia and Soviet Satire. Comics History Archive. Retrieved from [archival source].

7.Erickson, J. (1989). Brutopia and the Anti‑Utopia in Modern Drama [Conference presentation].

8.Jackson, K. (2021). Violence and Idealism: Reassessing Utopia in Modern Political Drama. Theatre Journal, 73(3), 331–345.

9.Jackson, T. (2021). Invisible Structures: Power and Repression in Utopian Literature. Journal of Political Aesthetics, 12(3), 331–345.

10.Kushner, T. (1993). Angels in America: Perestroika. Theatre Communications Group.

11.More, T. (2003). Utopia (P. Turner, Trans.). Penguin Classics. (Original work published 1516)

12.Rabey, D. I. (2009). Howard Barker: Ecstasy and Death: An Expository Study of His Drama, Theory and Production Work, 1988–2008. Springer Nature. https://doi.org/10.1057/9780230582033

13.Sarcent, A. (2010). Silencing Dissent in Utopian Narratives. Political Theory Review, 18(1), 1–20.

14.Sümbül, Ö. (2019). Ethical Ambiguity and Resistance in Howard Barker's Theatre of Catastrophe. European Journal of Theatre and Performance Studies, 7(4), 829–842. https://doi.org/10.33171/dtcfjournal.

15.Sümbül, A. (2019). Theatre of Catastrophe and Moral Complexity in Barker's Plays. Mediterranean Journal of Humanities, 9(2), 831–840.

16.Абдуллаева, Е.А. (2025). Интертекстуальность в современной английской драматургии, КУБАН, К., & ИТЕТ, У. Т. У. ТЕК Т–ДИ КУР–КУЛЬТУРА. https://www.kubsu.ru/sites/default/files/faculty/_1_0.pdf

**AYSU MAHAMMADALI HUSEYNLI**

## INTERTEXTUAL DIALOGUE IN HOWARD BARKER'S PLAY "BRUTOPIA" (IN THE CONTEXT OF THOMAS MORE'S "UTOPIA")

## SUMMARY

The article examines the ideological confrontation between Howard Barker's play Brutopia and Thomas More's Utopia, elucidating the literary, philosophical and aesthetic foundations of this confrontation. For centuries, the term 'Utopia' has served as a key reference point for writers of both utopian and dystopian works, symbolising political philosophy, social idealism, and rational order. Howard Barker disrupts traditional stereotypes, emphasising the contradictions of human experience and the significance of individual freedom and moral variability. The author of the article does not interpret Barker's Brutopia merely as a dystopian response to utopia; rather, it is argued that the play functions as a meta-critique, revealing the internal ideological violence of utopianism, the repressive mechanisms of social order, and the power relations concealed beneath the pursuit of perfection. In order to achieve this objective, the dramatist employs the concept of "Theatre of Catastrophe" and techniques of poetic fragmentation, thereby presenting a theatrical aesthetic that is intended to provoke discomfort and intellectual debate rather than provide consolation. The article's conclusion posits that Brutopia challenges the notion of a perfect and rational society, foregrounding individual desires, cruelty, and the contradictions inherent in human experience. In this sense, Barker's play must be regarded as an alternative depiction of dystopia, and as a philosophical and literary-aesthetic appeal, continuously questioning and deconstructing utopian ideals.

**Keywords:** Howard Barker, "Brutopia", Thomas More, "Utopia", dystopia, theatre of catastrophe, modern dramaturgy, meta-criticism

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 547-555*

**АЙСУ МАГОМЕДАЛИ ГУСЕЙНЛИ**

**ИНТЕРТЕКСТУАЛЬНЫЙ ДИАЛОГ В ПЬЕСЕ ГОВАРДА БАРКЕРА «БРУТОПИЯ» (НА ФОНЕ «УТОПИИ» ТОМАСА МОРА)**

**РЕЗЮМЕ**

В статье рассматривается идеологическое противостояние пьесы Говарда Баркера «Брутопия» и «Утопии» Томаса Мора, выясняются литературные, философские и эстетические основы этого противостояния. На протяжении веков термин «Утопия» служил ключевым ориентиром для авторов как утопических, так и антиутопических произведений, символизируя политическую философию, социальный идеализм и рациональный порядок. Говард Баркер разрушает традиционные стереотипы, подчеркивая противоречивость человеческого опыта и значение индивидуальной свободы и моральной изменчивости. Автор статьи интерпретирует «Брутопию» Баркера не просто как антиутопический ответ на утопию, а как метакритику, раскрывающую внутреннее идеологическое насилие утопизма, репрессивные механизмы социального порядка и властные отношения, скрытые под стремлением к совершенству. Для достижения этой цели драматург использует концепцию «театра катастрофы» и приемы поэтической фрагментации, представляя тем самым театральную эстетику, призванную не столько утешать, сколько провоцировать дискомфорт и интеллектуальные дискуссии. В заключении статьи утверждается, что «Брутопия» бросает вызов представлению об идеальном и рациональном обществе, выдвигая на первый план индивидуальные желания, жестокость и противоречия, присущие человеческому опыту. В этом смысле пьеса Баркера должна рассматриваться как альтернативное изображение антиутопии, а также как философский и литературно-эстетический призыв, постоянно ставящий под сомнение и деконструирующий утопические идеалы.

**Ключевые слова:** Говард Баркер, “Брутопия”, Томас Мор, “Утопия”, дистопия, театр катастрофы, современная драматургия, метакритика

**Rəyçi:** filologiya elmlər doktoru, dosent Yegane Atamoğlan qızı Abdullayeva